**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 1920-1930-CU İLLƏRDƏ AZƏRBAYCAN SSR-DƏ İCTİMAİ-SİYASİ VƏZİYYƏT (RUSİYA DÖVLƏT HƏRBİ ARXİVİNİN MATERİALLARI ƏSASINDA)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçi: **Ülkər Rafiq qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya Lənkəran Dövlət Universitetinin "Tarix və onun tədrisi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** Tarix elmləri doktoru, professor, əməkdar elm xadimi **Tofiq Mustafazadə**

**Rəsmi opponentlər:**

tarix elmləri doktoru, professor
**İradə Mehdiqulu qızı Hüseynova**

tarix elmləri doktoru, professor
**Qasım Əhəd oğlu Hacıyev**

tarix üzrə fəlsəfə doktoru
**Əzizə Ənvər qızı Nəzərli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri:

____________ tarix üzrə elmlər doktoru, professor
**Ibrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya Şurasının elmi katibi:

____________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi Seminarın sədri:

____________ tarix üzrə elmlər doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Baku State University l.e.p.l.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"03" 20 24

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin 20-ci illəri ölkəmizdə və regionda cərəyan etmiş ictimai-siyasi, iqtisadi proseslərin, baş vermiş geosiyasi dəyişikliklərin miqyasına və xalqımızın gələcək inkişafına təsiri baxımından Azərbaycan tarixində mühüm mərhələ təşkil edir. 1920-ci ilin aprelində bolşevik hökuməti Azərbaycan Cümhuriyyətinin ərazisini işğal edərək, onun milli-demokratik təsisatlarını, müstəqil dövlət atributlarını ləğv etdi, Azərbaycanda totalitar sovet sisteminin əsasını qoydu. 20-ci illərdə Azərbaycanda formalaşmış inzibati-amirlik sisteminin, kommunist diktaturasının əsas istinad qüvvəsi, sovet hakimiyyətinin həyata keçirdiyi hərbi-siyasi, iqtisadi, hətta mədəni tədbirlərin istinadedici qüvvəsi və hətta bilavasitə iştirakçısı XI Qırmızı ordunun respublikanın ərazisində yerləşdirilmiş hərbi bölmələri, eləcə də sovet rejiminin digər güc strukturları oldular. Məhz onların sayəsində Azərbaycanda sovet işğalına qarşı milli müqavimət hərəkatı kimi səciyyələndirilən silahlı üsyanlar və siyasi etiraz formaları vəhşicəsinə yatırıldı, bu hərəkatda iştirak etmiş Azərbaycanın görkəmli ictimai və siyasi xadimlərinə, Cümhuriyyətin elitasına, millətsevər hərbçlərinə, qabaqcıl ziyalılarına, mütərəqqi din xadimlərinə amansız divan tutuldu. Sovet dövlətinin həmin dövrdə bütün digər sovet respublikalarında olduğu kimi Azərbaycanda da siyasi, iqtisadi və mədəni tədbirləri həyata keçirərkən zorakı, qeyri-legitim, repressiv metodlardan, hərbi–güc vasitələrindən istifadə etməsi xalqın bütün təbəqələri arasında böyük etirazla qarşılanırdı. Əksər hallarda Azərbaycanda tətbiq olunan sistem dəyişiklikləri, inzibati tədbirlər nəinki xalq kütlələrinin geniş iştirakı olmadan, hətta yerli partiya və sovet orqanlarından belə xəbərsiz həyata keçirirdi. Xüsusən respublikada hərbi quruculuq işlərinin aparılması, sovet hüquq-mühafizə sisteminin yaradılması və digər inzibati-siyasi dəyişikliklər bilavasitə Mərkəzin rəhbər hakimiyyət orqanlarının göstəriş və diktəsi, eləcə də XI Qırmızı ordunun, sonra isə onun əsasında yaradılmış Əlahiddə Qafqaz ordusunun əmr və direktivləri əsasında baş tuturdu. Təsadüfi deyil ki, bütün 20-ci illər ərzində Azərbaycan SSR-də baş vermiş hadisələrdə, həyata keçirilmiş

kampaniyalarda (sovetləşdirmə, sənayeləşdirilmə, kollektivləşmə, mədəni inqilab, dinlə mübarizə, taxıl tədarükü və s.) hərbi amil, güc amili əsas rol oynayırdı. Bütövlükdə həmin proseslərin mərkəzində Qırmızı ordunun yerli strukturları dururdular. Bu baxımdan 20-ci illərdə Sovet hökumətinin Azərbaycanda yeritdiyi siyasi kursu təkcə siyasi, ideoloji, iqtisadi kontekstdən deyil, həm də hərbi kontekstdən dəyərləndirmək lazım gəlir. Çox təəssüf ki, uzun müddət ərzində (həm sovet dövründə, həm də müstəqillik illərində) həmin dövrün problemləri tədqiq edilərkən bu amilə kifayət qədər diqqət yetirilməmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra tariximizin bir çox problemləri kimi, 20-ci illərin problemlərinin obyektiv, hərtərəfli araşdırılması üçün əlverişli şərait yarandı. Son illərdə tarixşünaslığın bu istiqamətində çox böyük işlər görülmüş, maraqlı tədqiqatlar aparılmış, bu tədqiqatlarda çoxlu sayda materiallar və faktlar elmi dövriyyəyə gətirilmişdir. Bununla yanaşı XX əsrin 20-ci illərinin bir çox problemləri hələ də öz obyektiv tədqiqini gözləyir. Bu problemlər arasında Azərbaycanda hərbi-siyasi şəraitin inkişaf mərhələləri, xüsusiyyətləri, ictimai-siyasi proseslərdə, respublikada milli-dövlət quruculuğuna son qoyulmasında və sovet idarəçiliyi sisteminin yaradılmasında sovet hərbi komandanlığının iştirakı, Azərbaycanda milli müqavimət və etiraz hərəkatının yatırılmasında hərbi hissələrdən istifadənin nəticələri və s. məsələlərin tədqiqi xüsusi aktuallıq kəsb edir.

Əsas məsələlərdən biri 20-ci illərdə Azərbaycan ərazisində silahlı çıxışların inkişaf xüsusiyyətlərinin, coğrafiyasının, məqsəd və formalarının, nəticələrinin, sovet hakimiyyətinin onlarla mübarizədə tətbiq etdiyi metodların və üsulların hərtərəfli təhlil edilməsidir. Ümumiyyətlə, həmin illərdə Azərbaycanda baş vermiş silahlı çıxışlara münasibət tarixşünaslığın əsas ziddiyyətli məsələlərindən biri olaraq qalır. Əgər sovet dövründə rəsmi ideologiya və tarixşünaslıq bu çıxışları birmənalı olaraq banditizm kimi dəyərləndirirdisə, müasir Azərbaycan tarixşünaslığında əksinə, məqsəd və məramlarına, formalarına, iştirakçılarının sosial tərkibinə fərq qoyulmadan bu çıxışların hamısını sovet rejiminə qarşı milli

müqavimət hərəkatı kimi qiymətləndirmək cəhdləri özünü göstərir. Halbuki, həmin silahlı dəstələr tərkibinə görə yekcins olmayıb müxtəlif məqsədlər güdən insanlardan ibarət idi. Onların arasında siyasi, milli amallar uğrunda mübarizə aparanlarla yanaşı, itirdikləri imtiyazlarını, əmlaklarını qaytarmaq üçün silahlı dəstələr yaradanlar, soyğunçuluq və qarətçiliklə məşğul olmaq üçün əllərinə silah götürmüş cinayətkar ünsürlər də var idi. Bu cür yanaşma 20-30-cu illərin bir sıra digər məsələlərində də özünü göstərir.

Göründüyü kimi, 20-ci illərdə Azərbaycanda sovet quruculuğunun bir sıra aspektləri kifayət qədər araşdırmalara cəlb olunmamışdır. Bunun subyektiv amillərlə yanaşı, bir sıra obyektiv amilləri də vardır. Əsas problemlərdən biri, qeyd olunan məsələlərlə bağlı sənəd və materialların ölkəmizdən kənarda, xarici dövlətlərin, birinci növbədə Rusiyanın arxivlərində və digər sənəd mühafizə obyektlərində qorunub saxlanılmasıdır. Həmin sənədlərdən yararlanmadan Azərbaycanın 20-ci illər tarixi dövrünün dərin elmi tədqiqi mümkün deyildir. Heydər Əliyev qeyd edirdi ki, *dünyanın ən böyük kitabxanalarında, muzeylərində tariximizi əks etdirən çox zəngin kitablar, əlyazmaları, tarixi sənədlər var. Ancaq bizim tarixçilərimiz onlardan səmərəli istifadə edə bilmirlər*[1]. Bununla Heydər Əliyev tariximizin obyektiv araşdırılmasında ikin mənbələrə, xüsusən xarici arxivlərdə saxlanılan sənədlərə müraciət edilməsinin mühüm elmi əhəmiyyətini diqqətə çatdırırdı.

Bu baxımdan Rusiya Dövlət Hərbi Arxivinin (RDHA) materialları mühüm əhəmiyyət kəsb edir. RDHA-nın müvafiq fondlarında Azərbaycanı işğal etmiş və sonradan onun ərazisində dislokasiya olunmuş XI Qırmızı ordunun (daha sonra isə Əlahiddə Qafqaz ordusunun) və onun hissələrinin (korpus, diviziya, briqada və alaylarının), Fövqəladə Komissiyanın (ÇK), Baş Siyasi İdarənin və Xalq Daxili İşlər Komissarlığının qoşunlarının 1920-ci ildən 1940-cı ilə qədərki dövrü əhatə edən, praktik olaraq bütün hərbi dokumentasiyası cəmləşdirilmiş və mühafizə olunur. Bu sənədlərin

---

[1] Əliyev, H. Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. (46 cilddə) / H.Ə. Əliyev. − Bakı: Azərnəşr, − c.1. − 1997. − 612 s., 155

üzə çıxarılaraq təhlil edilməsi, Azərbaycan tarixinin qaranlıq səhifələrinin işıqlandırılmasında onlardan bir mənbə kimi istifadə edilməsi mühüm elmi aktuallıq kəsb edən məsələlərdəndir.

Problemin tarixşünaslığını nəzərdən keçirərkən ilk növbədə onu qeyd etmək lazımdır ki, 1920-1930-cu illər dövrü Azərbaycan tarixşünaslığında ən çox müraciət edilən dövrdür. Hələ Azərbaycan sovet tarixşünaslığının təşəkkül tapdığı ilk illərdə - 20-ci illərin sonları – 30-cu illərin əvvəllərində tarixçilər bu dövrün bir sıra məsələlərinə artıq yaranmaqda olan sovet ideologiyasının ehkamları mövqeyindən yanaşaraq işıqlandırmışlar. Sonrakı mərhələlərdə bu yanaşma daha da inkişaf etdirilərək sovet tarixşünaslığında hakim mövqe tutmuşdur. Azərbaycan tarixçiləri yalnız bu qeyri-elmi konsepsiyanı əlavə faktlarla və materiallarla "zənginləşdirmək"lə məşğul olmuşlar. Qeyd olunan konsepsiya 1920-ci ilin aprel hadisələrini hərbi təcavüz kimi deyil, Azərbaycanda silahlı üsyan nəticəsində sovet hakimiyyətinin qələbəsi, işğala qarşı xalqın müqavimət hərəkatını isə istismarçı siniflərin "fəhlə-kəndli" Sovet hakimiyyətinə qarşı mübarizəsi kimi səciyyələndirir, sonrakı illərdə respublikada baş vermiş ictimai-siyasi məsələləri də məhz "sinfi mübarizə" prizmasından dəyərləndirirdilər. Bütövlükdə Azərbaycan sovet tarixşünaslığında 20-ci illərə həsr edilmiş əsərlərin mütləq əksəriyyəti sosializmin qələbəsi uğrunda mübarizə dövründə Azərbaycan SSR-də müxtəlif sahələrdə qazanılmış uğurların tərənnüm edilməsi, bu sahədə kommunist partiyası və sovet dövlətinin rolunun işıqlandırılmasına həsr edilmişdir. Bu əsərlərdə bir qayda olaraq yalnız uğurlardan danışılır, 20-ci illərdə Azərbaycan cəmiyyətində müşahidə olunan mürəkkəb proseslər yalnız rəsmi ideologiyanın ehkamları çərçivəsində təhlil edilirdi. Bu baxımdan X. Əlimirzəyevin, M. Mirhadiyevin, H. Şahgəldiyevin, Q. Mədətovun, A. Atakişiyevin, P. Əzizbəyovanın K. Rəhimovun, X. Əhmədovun, C.Quliyevin, Ə. Qurbanovun, M. Səlimovun, T. Köçərlinin və başqa müəlliflərin əsərlərini[2], kollektiv monoqrafiyaları[3] göstərmək olar.

---

[2] Əhmədov, X. Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi / X. Əhmədov. − Bakı: Azərbaycan EA nəşri., − 1966. − 188 s.; Əlimirzəyev, X. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində / X. Əlimirzəyev. − Bakı: Azərnəşr,

Adı çəkilən müəlliflərin əsərlərində 20-ci illərdə sovet dövlətinin həyata keçirdiyi siyasi kampaniyalar (Azərbaycanda sovet hakimiyyətinin təşəkkül tapması, inqilab komitələrinin, sovetlərin yaradılması, yeni iqtisadi siyasət, sənayeləşdirilmə, kollektivləşmə, mədəni inqilab və s.) işıqlandırılmışdır. Bir qayda olaraq bu müəlliflər XI Qırmızı ordunun müdaxiləsini onun guya Sovet hakimiyyətinin qurulmasında Sovet Rusiyasının Azərbaycana qardaşlıq köməyi kimi qiymətləndirir, sovet qoşun hissələrinin sonrakı illərdə fəaliyyətini və rolunu isə respublikada sosializm quruculuğunda yaxından iştirakı kimi səciyyələndirirlər. Həmin əsərlərdə Azərbaycanda baş vermiş üsyanlara və digər etiraz çıxışlarına da toxunulur, lakin bu zaman ayrı-ayrı faktlar kontekstdən çıxarılaraq təqdim olunur, bu üsyan və çıxışların Azərbaycan xalqı tərəfindən dəstəklənmədiyi, hakimiyyətini itirmiş istismarçı, antisovet ünsürlərin sovet hakimiyyətinin həyata keçirdiyi tədbirlərə müqaviməti kimi təqdim olunurdu. Bu zaman həmin əsərlərdə ictimai-siyasi proseslərə hərbi-siyasi aspektlərdən yanaşmalara demək olar ki, rast gəlinmir. Azərbaycan ərazisində hərbi–siyasi şərait, ordu hissələrinin siyasi, iqtisadi proseslərdə iştirakı

---

− 1963. − 208 s.Əliyev, X. Azərbaycanda kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən (1930-1934) / X. Əliyev, X. Əlimirzəyev. − Bakı: Elm, − 1957. − 148 s.; Məmmədov, İ. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937] \ İ. Məmmədov. − Bakı: EA nəşri, − 1961. − 156 s.; Pəhimov, Ə. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi / Ə.Rəhimov. − Bakı: Elm, − 1962. − 212 s.; Rəhimov, K. Azərbaycan Kommunist Partiyasının respublikada sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizəsi (1921-1929-cu illər) / K. Rəhimov. − Bakı: Azərnəşr, − 1959. − 274 s; Гулиев, Дж. Борьба Коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане / Дж. Гулиев. − Баку: Азернешр, − 1970. − 706 с.; Кочарли Т.К. Исторический поворот в судьбах азербайджанского народа / Т. Кочарли. − Баку: Азернешр, − 1980. − 271 с

[3] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri: − Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, − 1964. − 818 s.; Azərbaycan tarixi. 3 cilddə. − Bakı: Elm, − III cild. I hissə. − 1973. − 548 s.; Azərbaycan tarixi. 7 cilddə. − Bakı: Elm, − V cild. − 2001. − 272 s.; История государства и права Азербайджанской ССР (1920−1934 гг.) / − Баку: Элм, − 1973. − 552 с.;Очерк истории Коммунистической партии Азербайджана / _Баку: Азгосиздат, − 1963. − 771 с.

məsələlərinə ya az toxunulur, ya da heç toxunulmurdu. Buna görə də təsadüfi deyildir ki, bəzi istisnalarla Azərbaycan müəlliflərinin əsərlərində RDHA-nin fondlarındakı sənədlərdən istifadə edilməmişdir. Yalnız Y. Tokarjevskinin əsərində[4] 1920-ci il aprel işğalından sonra Azərbaycanda siyasi şərait, o cümlədən baş vermiş üsyanlar qısa işıqlandırılarkən (təbii ki, dövrün ideoloji tələbləri prizmasından) RDHA-nin sənədlərindən, o cümlədən 1, 4, 109, 110, 195, 7940, 25846 fondlardakı işlərdən (cəmi 19 iş) istifadə etmişdir. Müəllifin qeyd olunan məsələləri təhlil edərkən istifadə etdiyi əsas mənbələr Azərbaycan arxivlərinin sənədləri, dövri mətbuat materialları olmuşdur. Başqa Azərbaycan müəllifləri də əsasən bu mənbələrə müraciət etmişlər. Əslində yuxarıda qeyd edildiyi kimi, bunun əsas səbəblərindən biri Moskvadakı arxiv sənədlərinin, xüsusən RDHA-nin sənədlərinin onlar üçün əlçatar olmaması ilə bağlı idi. Bu baxımdan Azərbaycan hərb tarixinin tədqiqatçısı R. Zeynalovun sovet hakimiyyətinin son dövründə - 1990-cı ildə çıxmış monoqrafiyası[5] istisna təşkil edir. Monoqrafiyada 20-ci illərdə Azərbaycanda ordu quruculuğu və hərbi məsələlər işıqlandırılarkən Azərbaycan arxivləri ilə yanaşı RDHA-nin 9, 195, 216, 875, 25034, 25846, 33896, 37837 fondlarının sənədlərinə də müraciət edilmişdir.

RDHA-nın sənədlərinə əlçatarlıq baxımından Rusiya tarixçilərinin imkanları daha çox olduğundan bir sıra sovet müəlliflərinin əsərlərində[6] Azərbaycanda və Cənubi Qafqazda 20-ci illərdə cərəyan etmiş hərbi-siyasi proseslər öz əksini tapmışdır. A. Kadişevin

---

[4] Токаржевский, Е.В. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане / Е. Токаржевский. −Баку: Изд. АН., − 1957. − 332 с.

[5] Зейналов, Р. Военное строителство – военно−патриотическая и оборонно−массовая работа в Азербайджанской ССР в период строительства социализма (1920− июнь 1941) / Р. Зейналов. −Баку: Элм, − 1990. − 206 с.

[6] Берхин, И.Б. Военная реформа в СССР (1924−1925 гг.) / И. Берхин. − Москва: Воениздат, − 1958. − 460 с.; Маковский А.А. Каспийская Краснознаменная / А. Маковский, Б. Радченко. – Москва: Военное издательство, −1982. − 171 с.; Обертас И.Л. Начдив Двадчатой Великанов / И.Обертас. − Москва: Воениздат, − 1964. − 160 с.; Привольный А.А. Над Муганью зарево октября / А. Привольный. − Баку: Азернешр, − 1967. − 199 с.; Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны (1918−1920) / А. Хейфец. − Москва: Наука, − 1964. − 471 с.

əsərində[7] XI Qırmızı ordu tərəfindən Azərbaycanın işğalı, 20-ci illərin I yarısında Azərbaycan ərazisində antisovet üsyanları və bu üsyanların yatırılması, regionda cərəyan etmiş siyasi-hərbi proseslər haqqında zəngin faktiki materiallar mövcuddur. Özü də bu materialların bir çoxu RDHA-nin sənədlərindən ibarətdir. M. Traskunovun kitablarında[8] XI Qırmızı ordunun döyüş yolu işıqlandırılarkən bu ordunun Bakını və Azərbaycanın digər ərazilərini işğal etməsi ilə bağlı məsələlərə toxunulur və bu zaman digər mənbələrlə yanaşı RDHA-nin sənədlərinə istinad edilir. A. Amirxanova-Kulişin və Z. Zulpukarovun birgə monoqrafiyasında[9] XI Qırmızı ordunun və Xəzər hərbi donanmasının Azərbaycanda sosializm quruculuğunun siyasi, təsərrüfat və mədəni vəzifələrinin həllində rolu işıqlandırılır. 1920-1923-cü illəri əhatə edən monoqrafiyanın müəllifləri də digər sovet müəllifləri kimi Sovet Rusiyasının XI Qırmızı ordusunun Azərbaycanı işğal etməsini, bu ordunun "Azərbaycan proletariatının xahişi ilə ona hərbi yardım göstərməsi", ən başlıca xidmətinin isə guya "sosialist inqilabının nailiyyətlərinin müdafiəsi" olduğunu iddia edirlər. Eyni zamanda müəlliflər etiraf edirlər ki, 20-ci illərin əvvəllərində Azərbaycanda yaranmış spesifik siyasi və sosial-iqtisadi şəraitdə Qırmızı ordu (XI ordu) təsərrüfat, siyasi-tərbiyə və mədəni-maarif funksiyalarını da yerinə yetirmişdi. Monoqrafiyadakı materiallar SSRİ və Azərbaycan SSR arxivlərindən, sənədlər məcmularından və dövri mətbuatdan toplanmışdır. Bu materiallar içərisində RDHA-nin 14 fondunun sənədləri də vardır.

Sovet tarixşünaslığında müqavimət hərəkatı yenə də banditizm kimi təqdim olunmaqla bərabər, bu problemə ümumiləşdirilmiş

---

[7] Кадишев, А.Б. Интервенция и гражданская война в Закавказье / А. Кадишев. − Москва: Военное издательство, − 1965. − 510 с.

[8] Траскунов, М. Героический боевой путь 11−й армии на фронтах гражданской войны (1918−1921 гг.) /. М. Траскунов. −Тбилиси: Политуправ. Закаввоенокруга, − 1958. − 275 с.; Траскунов, М.Б. Кавказская красно-знаменная / М. Траскунов. − Тбилиси: «Заря Востока»., − 1961. − 342 с.

[9] Амирханова-Кулиш, А. Помощь Красной Армии в социалистическом строительстве в Азербайджане / Амирханова-Кулиш А., Зульпукаров З. − Москва: Наука, − 1981. − 183 с.

əsərlərdə, yaxud da hansısa bir məsələyə həsr olunmuş ayrı-ayrı məqalələrdə ötəri toxunulurdu. Həmin əsərlərdə mövcud sovet ideologiyasına uyğun olaraq bu hərəkata sinfi düşmənin yeni mübarizə taktikası kimi baxılırdı. Müəlliflərin bəziləri isə Azərbaycandakı müqavimət hərəkatının xaricdəki siyasi mühacirətin təsiri ilə baş verdiyini göstərirdilər. Təbii ki, bu günkü elmi tələblər baxımından bu əsərlər artıq öz elmi-metodoloji əhəmiyyətini itirmişlər. Bununla yanaşı həmin əsərlərdəki faktoloji materiallar problemin araşdırılmasında müəyyən rol oynamışdır.

Müstəqillik illərində Azərbaycan tarixşünaslığında XX yüzilliyin 20-ci illərinin öyrənilməsi sahəsində ciddi təkamül baş vermiş, tarixçilərimiz bu dövrün təlatümlü hadisələrini ilkin mənbələr əsasında obyektiv araşdırmaq imkanı qazanmışlar. Məhz bunun nəticəsidir ki, 90-cı illərin ortalarından başlayaraq bu günə qədər Azərbaycan tarixçiləri tərəfindən 20-ci illərin hadisə və proseslərinə həsr edilmiş bir sıra tədqiqatlar ortaya qoyulmuşdur. Bu tədqiqatlar sırasında F. İbrahimlinin (İbişovun)[10] və C. Cəfərovun[11] Azərbaycan kəndində sosial-siyasi hadisələrin təhlilinə həsr edilmiş əsərləri, C. Həsənlinin kitablarında[12], İ. Musayevin Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyətə həsr olunmuş monoqrafiyalarında[13] dissertasiyada öz əksini tapmış məsələlərlə bağlı bir çox məqamlara toxunulur.

Z. Bünyadovun, C. Qasımovun, F. Əhmədovanın, M. Qasımlının, R. Bayramovanın, E. İsmayılovun və başqa müəlliflərin[14] 1990-

---

[10] İbişov (İbrahimli), F. Azərbaycan kəndində sosial–siyasi proseslər (1920-1930) \ F. İbişov (İbrahimli). − Bakı: Mütərcim, − 1996. − 168 s.

[11] Cəfərov, C. Azərbaycan kəndi kollektivləşmə illərində (1920–ci illərin sonu – 30–cu illər) / C. Cəfərov. − Bakı: Elm, − 2008. − 300 s.

[12] Həsənli, C. Sovet dövründə Azərbaycanın xarici siyasəti / C. Həsənli. − Bakı: Adiloğlu, − 2012. − 656 s. Həsənov, C. "Ağ ləkələr"in qara kölgəsi / C. Həsənov. − Bakı: Gənclik, − 1991. − 200 s.

[13] Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1920-ci illər) / İ. Musayev. − Bakı: BDU nəşriyyatı, − 1998. − 385 s.

[14] Bünyadov, Z. Qırmızı terror / Z. Bünyadov. − Bakı: Azərnəşr, − 1993. − 331 s.; Qasımov, C. Yaddaşın bərpası / C. Qasımov. Bakı: Mütərcim, − 1999. − 256 s.; Qasımlı, M. Azərbaycan türklərinin milli mücadilə tarixi. 1920-1945 (türk dilində)/

2000-ci illərdə nəşr edilmiş əsərlərində sovet rejiminin və sovet ordusunun Azərbaycanda həyata keçirdikləri siyasətin təhlilinə geniş yer verilmiş, antisovet üsyanları haqqında maraqlı materiallar öz əksini tapmışdır.

20-ci illərdə Azərbaycanın ictimai-siyasi vəziyyətinin yeni tələblər əsasında ümumiləşdirilmiş elmi mənzərəsi Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu tərəfindən nəşr olunmuş 7 cildlik "Azərbaycan tarixi"in VI cildində[15] geniş əks olunmuşdur.

2010-cu illərdə Azərbaycanın 20-30-cu illər tarixinin araşdırılması daha geniş vüsət almış, dissertasiyanın predmetinə aid olan bir çox məsələlər bu illərdə işıq üzü görmüş tədqiqatlarda öz əksini tapmışdır. Ə. Nəzərlinin monoqrafiyasında[16] zəngin arxiv materialları əsasında XI Qırmızı ordunun Azərbaycanda törətdiyi özbaşınalıqlar və cinayətlər işıqlandırılmışdır.

Mövzunun tədqiqi baxımından İ. Niftəliyevin tədqiqatları da mühüm əhəmiyyət kəsb edir. Onun 2010-cu ildə çapdan çıxmış əsərində[17] 20-ci illərdə Azərbaycana qarşı ermənilərin işğalçılıq siyasəti ifşa edilir. Müəllifin digər monoqrafiyasında[18] isə həmin illərdə Azərbaycanda sovet kadr siyasətinin əsas istiqamətləri və həyata keçirilmə formaları nəzərdən keçirilmişdir. Bu zaman kadr siyasəti bolşeviklərin milliləşdirmə siyasəti prizmasından tədqiq edilmişdir.

Dissertasiyanın tədqiqat predmeti olan problemlərin tədqiqində Azərbaycan hərb tarixinin görkəmli tədqiqatçısı M. Süleymanovun

---

M.Qasımlı. − İstanbul: − 2006. − 704 s.; Bayramova, R. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili çəkişmələr (1920−1925−ci illər) / X. Bayramova. − Bakı: Elm, − 2007. − 196 s.; Исмаилов, Э. История «большого террора» в Азербайджане / Э. Исмаилов. − Москва: РОССПЭН, − 2015. − 237 с.

[15] Azərbaycan tarixi. 7 cilddə. − Bakı: Elm, − VI cild. − 2008. − 568 s.

[16] Назарли А. Э. XI Красная Армия в Северном Азербайджане: оккупация, расправы, бесчинства / А. Назарли. − Баку: Elm və təhsil, − 2014. − 392 с.

[17] Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских планах армян (20−е годы XX века) / И. Нифталиев. − Баку: Təhsil, − 2010. − 292 с.

[18] Нифталиев И. Кадровая политика в Азербайджанской ССР в 1920−1930−е гг.: цели. основные направления и формы осуществления. Баку: Elm və Təhsil. 2018. 480 с.

əsərləri mühüm rol oynamışdır. Azərbaycanın hərb tarixinin sovet dövrünə həsr edibmiş iki cildlik monoqrafiyasında[19] müstəqilliyin süqutundan sonra Azərbaycanda mövcud olan hərbi-siyasi şərait təhlil edilmiş, bu zaman Azərbaycanın Rusiya qoşunları tərəfindən işğalı, Azərbaycan ərazisində XI ordunun şəxsi heyətinin cinayətləri, sovet quruluşu əleyhinə üsyanlar, ərazi bütövlüyünün hərbi aspektləri məsələləri geniş işıqlandırılmışdır.

Göründüyü kimi, təqribən 30 illik bir dövrü əhatə edən zaman kəsiyində Azərbaycan tarixşünaslığı XX əsrin 20-ci illərinin tarixinin problemlərinin elmi təhlilini verən əsərlərlə zənginləşmişdir. Bu əsərlərdə təqdim etdiyimiz dissertasiyanın mövzusunun bir çox aspektlərinə toxunulur və təhlil olunur. Lakin bu əsərlərin (C. Həsənlinin və İ. Niftəliyevin monoqrafiyaları istisna olmaqla) əksəriyyətinin mənbə bazasını Azərbaycan arxivlərinin sənədləri və dövrü mətbuat materialları təşkil edir. Həmin əsərlərdə RDHA-nin sənədləri demək olar ki, dövriyyəyə gətirilməmişdir. Bu baxımdan Ə. Məmmədovun monoqrafiyası[20] istisna təşkil edir. Monoqrafiyada XIX əsrin 30-cu illərindən 1930-cu ilə qədər Azərbaycanın şimal-qərbində (Zaqatala-Şəki bölgəsində) baş vermiş üsyanlar, müqavimət və etiraz hərəkatının digər formaları (qaçaq hərəkatı və s.) geniş işıqlandırılmışdır. Müəllif 1920-ci illərdə Azərbaycanda sovet işğalına qarşı baş vermiş üsyanları, o cümlədən 1930-cu il Göynük üsyanını təhlil edərkən Rusiya arxivlərinin, birinci növbədə RDHA-nin sənədlərini geniş tədqiq etmişdir.

Bir sıra Rusiya müəllifləri SSRİ-də 20-ci illərdə həyata keçirilmiş siyasəti, o cümlədən milli siyasət, yerliləşdirmə, milli ordu quruculuğu, xüsusən kəndlilərə qarşı tətbiq edilən siyasi kursu təhlil edərkən Zaqafqaziyada və Azərbaycanda mövcud olmuş ictimai-siyasi və hərbi vəziyyətə də toxunmuşlar. Rusiya müəllifləri arasında

---

[19] Süleymanov, M. S. Azərbaycanın hərb tarixi: Sovet dövrü (2 cilddə) / M. Süleymanov. − Tehran: Firuzan. − I hissə (1920-1922). − 2011. − 599 s.; Süleymanov M. Azərbaycanın hərb tarixi. Sovet dövrü. II hissə (1923−1990). Tehran: Firuzan. 2011. 731 s.

[20] Məmmədov, Ə. Göynük hərəkatı. (1805-1930-cu illər) / Ə. Məmmədov. − Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, − 2016. − 524 s.

A. Bezuqolnının əsərini[21] xüsusilə qeyd etmək lazımdır. Əsərdə müəllif əsas diqqəti Qafqaz xalqlarının nümayəndələrinin hərbi xidmətinin siyasi və ideoloji aspektlərinə yönəltmişdir. Kitabda Azərbaycanın 20-ci illər hərbi-siyasi tarixinin bir sıra məsələləri, o cümlədən sovet hakimiyyətinə qarşı müqavimət, banditizm, fərariliklə bağlı mübarizə ilə bağlı maraqlı mülahizələr irəli sürülmüş, faktlar gətirilmişdir. Müəllifin istinad etdiyi mənbələr sırasında RDHA-nin sənədləri də vardır. Onlardan bəziləri, o cümlədən Gəncə üsyanının yatırılması ilə bağlı XI ordu komandanlığı ilə 20-ci diviziyanın komandanlığı arasında teleqraf danışıqlarının yazılı mətni kitaba əlavə edilmişdir. Qeyd etmək lazımdır ki, Rusiya tarixşünaslığında 20-30-cu illərin hadisələrinə münasibət heç də birmənalı deyildir. Əksər müəlliflər həmin illərdə SSRİ-də cərəyan etmiş proseslərin mənfi tərəflərini (xüsusən kollektivləşdimə zamanı) qabartsalar da, bəzi müəlliflər o cümlədən V. Litvinenko, V. Danilov və başqaları Stalin dövrünü bir növ "ağartmağa" çalışırlar.

Sovet hakimiyyətinin milli respublikalarda, o cümlədən Azərbaycanda həyata keçirdiyi milli siyasətin əsas cəhətlərini öyrənmək baxımından qərb müəlliflərinin əsərləri də mühüm əhəmiyyət kəsb edir. Alman tarixçisi Y. Baberovski[22] Rusiyanın və Azərbaycanın arxivlərindən topladığı zəngin materiallar əsasında bolşeviklərin Azərbaycanda tətbiq etdikləri siyasi kursun mahiyyətini, formalarını və nəticələrini təhlil etmiş, stalinizmin inkişaf mərhələlərini işıqlandırmışdır.

Tədqiqatın əsas mənbə bazasını RDHA-nin müvafiq fondlarındakı sənədlər təşkil edir. Müəllif dissertasiya üzərində işləyərkən adı çəkilən arxivin 9-cu (Respublika İnqilabi Hərbi Şuranın Siyasi İdarəsi), 109-cu (Qafqaz cəbhəsi ordularının İdarəsi), 195-ci (Qafqaz cəbhəsi XI ordusunun idarəsi), 216-cı (Əlahiddə Qafqaz ordusunun İdarəsi), 878-ci (2-ci Qafqaz atıcı korpusunun İdarəsi), 7717-ci (XI

---

[21] Безугольный, А.Ю. Народы Кавказа и Красная Армия. 1918−1945 гг.. / А. Безугольный. − Москва: Вече, − 2007. − 512 с.

[22] Баберовски, Й. Враг есть везде. Сталинизм на Кавказе / Й Баберовски. − Москва: РОССПЭН, − 2010. − 855 с.

Ordunun 18-ci süvari diviziyasının idarəsi), 1357-ci (32-ci atıcı diviziyasının), 25873-cü (Zaqafqaziya hərbi dairəsinin idarəsi), 25846-cı (Azərbaycan SSR Xalq Hərbiyyə və Bəhriyyə (Hərbi-Dəniz) Komissarlığı) fondlarındakı sənədləri araşdırmış və dövriyyəyə daxil etmişdir.

RDHA ilə yanaşı Azərbaycan arxivlərinin müvafiq fondlarında da axtarışlar aparılmış, mövzuya aid materiallar təhlil edilmişdir. Bu materiallar Azərbaycan Respublikasının Dövlət Arxivinin (ARDA) və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin (ARPİİSSA) fondlarında saxlanılır. Qeyd etmək lazımdır ki, adı çəkilən arxivlərin surət fondlarında vaxtilə Rusiyanın müxtəlif arxivlərindən, o cümlədən RDHA-dən toplanmış sənədlər saxlanılır ki, bu sənədlər problemin araşdırılmasında mühüm rol oynamışdır.

İkinci qrup mənbələr qrupuna sovet dövründə nəşr olunmuş sənədlər və materiallar topluları (məcmuları)[23] daxildir. Bu toplularda XI Qırmızı ordunun Azərbaycana hərbi müdaxiləsi, respublikada hərbi-siyasi şərait, qəzalarda işğal əleyhinə üsyanlar, bu üsyanların yatırılması ilə bağlı hərbi komandanlığın tədbirləri və s.

---

[23] Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии. 1918−1920 гг. Сборник документов /. − Баку: Элм, − 1971. − 392 с.; Гражданская война в СССР: (В 2−х т.) / − Москва: Военииздат. Т.II., −1986. − 446 s.; Декреты Азревкома (1920−1921 гг.). Сборник документов /. − Баку: Азернешр, −1988. − 519 с.; Директивы Главного командования фронтов Красной Армии 1917−1920 годов: Сборник документов / − Москва: Воениздат, − 1969. − 884 с.; Директивы командования фронтов Красной армии (1917−1922 гг.): Сборник документов (В 4 томах). − Москва Воениздат, Т. 3. Апрель 1920− 1922 г.., − 1974. − 767 с.; Интернациональная помощь XI Красной армии в борьбе за победу советской власти в Азербайджане: Документы и материалы. 1920−1921 гг. / −Баку: Азернешр, − 1989. − 194 с.; Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 2 т.]/ − Баку: Азернешр, − Т. 1. 1920−1937, −1986. − 674 с.; Краснознаменный Закавказский: Очерки истории Краснознаменного Закавказского военного округа /. − Москва: Воениздат, − 1969. − 448 с.; Краснознаменный Закавказский:. Очерки истории Краснознаменного Закавказского Военного округа / − Тбилиси: «Сабчота Сакартвело, − 1981. − 400 с.

materiallar yerləşdirilmişdir. Bu sənədlər və materiallar ARDA və ARPİİSSA sənədləri, dövri mətbuat materialları ilə yanaşı RDHA-nin müvafiq fondlarının sənədlərindən ibarətdir. Dissertasiya üzərində işləyərkən müəllif dövri mətbuatın mövzuya dair materiallarını da təhlilə cəlb etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XX əsrin 20-ci illərində Azərbaycanın ictimai-siyasi vəziyyəti təşkil edir. Tədqiqatın predmetinə isə göstərilən zaman çərçivəsində Azərbaycan SSR-nin ictimai-siyasi həyatında baş vermiş hadisə və proseslər, respublikada yeni cəmiyyət quruculuğunun özəllikləri, sovet rejiminə qarşı mübarizə hərəkatı ilə bağlı məsələlər daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzunun tarixşünaslığının qısa təhlili təsdiq edir ki, XX əsrin 20-ci illərinin tarixinin araşdırılması sahəsində ciddi nailiyyətlər əldə edilsə də, dissertasiyanın tədqiqat obyekti olan məsələlərin bir çox aspektləri hələ də öz həllini gözləyir. Bu problemlərin araşdırılmasında daha geniş mənbələrin, xüsusən xarici ölkə arxivlərinin Azərbaycan tarixi ilə bağlı sənədlərinin öyrənilməsinə kəskin ehtiyac vardır. Həmin arxivlər arasında Rusiya Dövlət Hərbi Arxivinin sənədləri mühüm yer tutur.

Tədqiqatın əsas məqsədi Rusiya Dövlət Hərbi Arxivinin müvafiq fondlarındakı sənəd və materialları elmi dövriyyəyə daxil etməklə 1920-1930-cu illərdə Azərbaycanın ictimai-siyasi vəziyyətinin elmi təhlilini verməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

Yeni mənbələrin təhlili əsasında Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı ərəfəsində ölkədə və regionda ictimai-siyasi, geosiyasi və hərbi vəziyyətin dəyərləndirilməsi;

RDHA-nın materiallarını və digər mənbələri cəlb etməklə Sovet Rusiyasının siyasi-hərbi rəhbərliyi tərəfindən Azərbaycanın işğalı məqsədilə hazırlanmış planların həyata keçirilməsi mərhələlərinin müəyyənlədirilməsi;

Aprel işğalından sonra Azərbaycanın SSR-nin ərazi bütövlüyü probleminin və qonşu dövlətlərlə sərhədində yaranmış hərbi şəraitin təhlili;

Sovet hakimiyyətinin ilk aylarında Azərbaycan SSR-də yeni rejimin tətbiq etdiyi inzibati idarəçilik metodlarının, hərbi, iqtisadi, mənəvi-mədəni tədbirlərin mahiyyətinin və nəticələrinin açıb göstərilməsi;

Sovet işğalına qarşı Gəncə üsyanı da daxil olmaqla Azərbaycanın müxtəlif bölgələrində vüsət almış mili müqavimət hərəkatının səbəblərinin, inkişaf mərhələlərinin və nəticələrinin RDHA-nin sənədləri əsasında təhlil edilməsi;

RDHA-nın sənədlərinin təhlili əsasında Azərbaycan SSR-nin müxtəlif bölgələrində baş vermiş silahlı çıxışların coğrafiyasının, aparıcı qüvvələrinin müəyyənləşdirilməsi, bu üsyanların təsnifatının aparılması;

Respublika ərazisində baş vermiş antisovet üsyanların və digər silahlı çıxışların yatırılmasının RDHA sənədlərinə əsasən işıqlandırılması;

RDHA-nin fondlarındakı materialları ümumiləşdirməklə 1920-ci illərin sonlarında Azərbaycan SSR-nin ayrı-ayrı bölgələrinin siyasi-iqtisadi vəziyyətinin təhlili.

**Tədqiqatın metodları.** Dissertasiya işinin metodoloji əsasını tarix elminin ümumi və xüsusi elmi prinsipləri (tarixilik, sistemlilik, obyektivlik) və metodları (konkret-tarixi və müqayisəli təhlil metodları) təşkil edir. Tarixilik prinsipi araşdırılan məsələlərin dinamik sistem olaraq inkişafda, hər bir hadisənin digərləri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməsini tələb edir. Elmi tarixi yanaşma tarixi faktları və hadisələri gerçək, dövrün şərtləri daxilində qiymətləndirilməsini tələb edir.

Tarixilik prinsipi ilə sıx bağlı olan obyektivlik prinsipi müxtəlif mənbələrin göstəricilərinə tənqidi yanaşma, təfəkkür streotiplərindən, tədqiqatçının tarixi şəxslərə və hadisələrə subyektiv münasibət göstərməsindən imtinanı tələb edir.

Tədqiqat aparılarkən geniş sənədlər bazasına müraciət edilmiş, bu zaman analiz və sintez metodlarından istifadə edilmiş, sənədlər tərtib olunduğu zaman kontekstində səciyyələndirilmişdir. Arxiv sənədləri təhlil edilərkən müqayisəli–tarixi analiz metodundan istifadə edilmiş, oradakı faktlar və məlumatlar müqayisəli şəkildə təhlil edilmiş,

müxtəlif mənbələrin materialları qarşılıqlı tutuşdurulmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Azərbaycanın 1920-1920-cu illər tarixinin öyrənilməsində RDHA-nin sənədləri müstəsna əhəmiyyətə malik olduğundan, dövrün hadisə və proseslərinin tədqiqində həmin arxiv sənədlərindəən istifadə edilməsi müstəsna elmi aktuallıq kəsb edir;

RDHA materialları Azərbaycanın işğal edilməsinin Sovet Rusiyasının işğalçılıq planlarının tərkib hissəsi olduğunu göstərir;

RDHA-nin materialları Azərbaycanı işğal edən sovet ordusunun gücü və planları haqqında dolğun təsəvvür yaradır, bu materiallar həmçinin bolşeviklərin Azərbaycana hərbi təcavüzünün Qarabağda erməni separatçıları ilə əlaqələndirilmiş şəkildə həyata keçirildiyini təsdiq edir

Azərbaycanda sovet rejiminin yaradılmasında və möhkəmləndirilməsində əsas rolu yerli əhalinin nümayəndələri deyil, hərbi hissələr və onların xüsusi şöbələri oynayırdılar;

RDHA sənədləri Azərbaycanda sovet quruculuğunun kütləvi qanunsuzluqlar və repressiyalarla müşayiət olunduğunu, bunun isə kütləvi narazılıqların və etirazlara gətirib çıxardığını göstərir;

Azərbaycanda baş vermiş qanunsuzluqlar və zorakılıqlar xalqın milli və dini dəyərlərinə sayğısız münasibət yeni hakimiyyətə qarşı müxtəlif formalarda, o cümlədən silahlı üsyan formasında cərəyan edən kütləvi müqavimət hərəkatının baş verməsinə gətirib çıxarmışdı;

Rejimə qarşı siilahlı çıxışlar ölkənin bütün ərazisini bürümüşdü və çıxışlar arasında Gəncə üsyanı xüsusi yer tuturdu;

RDHA-nin materialları üsyanların yatırılması zamanı sovet komandanlığının ən amansız metodlardan istifadə etdiyini təsdiq edir;

RDHA sənədləri üsyanların coğrafiyası və hərəkətverici qüvvələri haqqında mühüm məlumatlar mənbəyidir;

1920-ci illərin sonlarında kollektivləşmənin başlanması ilə etiraz hərəkatının yeni mərhələsi başlanmış, bolşevik terrorunun yeni dalğası vüsət almışdır;

20-30-cu illərdə Azərbaycanın müxtəlif bölgələrinin sosial-iqtisadi və siyasi vəziyyətinin işıqlandırılmasında RDHA fondlarının materialları müstəsna əhəmiyyət malikdir.

**Tədqiqatın elmi yeniliyi**. Təqdim olunan dissertasiyada vətən tarixşünaslığında ilk dəfə olaraq 1920-1930-cu illərdə Azərbaycanın ictimai-siyasi vəziyyəti Rusiya Dövlət Hərbi Arxivinin sənədlərinə istinad edilərək kompleks şəkildə tədqiq edilmişdir.

Tədqiqat zamanı istinad edilmiş sənədlərin bir çoxu elmi dövriyyəyə məhz bu dissertasiyada daxil edilmişdir. Eyni zamanda problemlə bağlı elmi ədəbiyyatdakı və sənədlər toplularındakı bir çox materiallar və faktlar ilkin mənbələr, o cümlədən RDHA-nin sənədləri ilə müqayisə edilərək real vəziyyətin adekvat əks olmasına cəhd edilmişdir.

Yeni arxiv sənədləri əsasında 1920-1930-cu illərdə Azərbaycanın ictimai-siyasi vəziyyətinin bir çox aspektlərinə yeni konseptual yanaşma nümayiş etdirilmişdir.

RDHA-nin sənədlərinin təhlili bolşevik rəhbərliyinin Azərbaycanın müstəqil dövlətçiliyini məhv etmək üçün əvvəlcədən hazırlanmış siyasi-diplomatik və hərbi-taktiki planlara malik olduğunu sübut edir;

RDHA-nin materialları XI Qırmızı ordunun Azərbaycanın işğalının bir sıra detallarına aydınlıq gətirməyə imkan vermişdir. Bu materiallar Sovet hökumətinin Cənubi Qafqazın işğalını başa çatdırmaqda və ümumiyyətlə, bolşeviklərin Şərq siyasətinin həyata keçirilməsində Azərbaycana mühüm əhəmiyyət verildiyini sübut edir;

Arxiv sənədlərinin köməyi ilə Sovet hakimiyyətinin Azərbaycanda həyata keçirdiyi siyasətin bir çox aspektləri araşdırılmışdır;

Bu sənədlərin təhlili Azərbaycan SSR ərazisində Sovet işğalına qarşı müqavimət hərəkatının indiyədək tarixşünaslıqda öz həllini tapmamış müəyyən aspektlərinə işıq salmağa imkan yaratmışdır;

Azərbaycanda ordu quruculuğunun müxtəlif məsələləri dövrün sovet hərbi quruculuğu kontekstində təhlil edilmişdir;

RDHA-nin fondlarındakı sənədlər elmi dövriyyə daxil edilməklə

Azərbaycan SSR-də XX əsrin 20-ci illərində həyata keçirilmiş siyasi, iqtisadi və mədəni tədbirlərin qaranlıq məqamlarına münasibət bildirilmişdir;

İlk dəfə olaraq Azərbaycanda 20-ci illərdə baş vermiş silahlı çıxışlar, qaçaq hərəkatı ilə mübarizədə qoşun hissələrinin və digər cəza güclərinin haqqında məlumatlar elmi dövriyyəyə daxil edilmişdir ki, bu da müəllifə qeyd olunan problemin respublikanın ictimai-siyasi həyatının mühüm aspekti kimi nəzərdən keçirməyə əsas vermişdir;

Müəllif tərəfindən ilk dəfə olaraq RDHA-nin fondlarındakı materiallar ümumiləşdirilərək araşdırılan dövrdə Azərbaycan bölgələrinin siyasi və sosial-iqtisadi vəziyyətinin mənzərəsi verilmiş, bu mənzərəni əks etdirən cədvəl hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqat zamanı əldə edilmiş faktiki materiallar əsasında elmi-tarixi təhlil aparılmış və nəticələr əldə edilmişdir. Bu nəticələr Azərbaycan tarixinin XX əsrin 20-30-cu illər dövrünün bir sıra problemlərinə yenidən baxmağa imkan vermişdir.

Elmi dövriyyəyə daxil edilmiş məlumatlar və faktlar qeyd olunan dövrün hadisələri və prosesləri haqqında indiyədək tarixşünaslıqda mövcud olmuş məlumatları daha da zənginləşdirməklə yanaşı, bu problemlərin gələcəkdə daha geniş şəkildə araşdırılması üçün mühüm elmi zəmin yaradır.

Dissertasiyada öz əksini tapmış faktlar və məlumatlar Azərbaycanın XX əsr tarixinə dair ümumiləşdirilmiş əsərlərin, monoqrafiya və kitabların yazılmasında, dissertasiyaların və tədris vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın ayrı-ayrı nəzəri müddəaları və nəticələri Lənkəran Dövlət Universitetinin Tarix və onun tədrisi metodikası kafedrasının iclaslarında bir neçə dəfə müzakirə edilmiş və açıq müdafiəyə təqdim edilmişdir. Müəllifin dissertasiyanın məzmununu əhatə edən məqalələri müxtəlif elmi jurnallarda nəşr edilmişdir. Məqalələrdən üçü xarici jurnallarda nəşr edilmişdir. Dissertasiyanın problemləri ilə bağlı müəllif bir neçə ölkə və beynəlxalq elmi konfransda çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Lənkəran Dövlət Universitetinin Tarix və onun tədrisi kafedrası

**Dissertasiyanın ümumi həcmi** 295088 işarədən (ədəbiyyat siyahısı nəzərə alınmadan), o cümlədən "Mündəricat" və "Giriş" hissəsi 33813, I fəsil 47047, II fəsil 88653, III fəsil 123448, "Nəticə" hissəsi 13071 işarədən ibarətdir.

# II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı nəzərə çatdırılır, işlənmə dərəcəsi araşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri açıqlanır, tədqiqat metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar və tədqiqatın elmi yeniliyi əsaslandırılır, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda, həmçinin dissertasiyanın ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalı RDHA-nın sənədlərində"** adlanır. Həmin fəslin **"Bolşevik hökuməti tərəfindən Azərbaycanın işğalı planının hazırlanması və həyata keçirilməsi"** adlı I yarımfəslində RDHA-nin materiallarına istinad edilməklə dissertasiyada Azərbaycanı işğal edən sovet ordusunun qüvvələri, tərkibi, əməliyyat planları, hərbi hissələrin qarşısında qoyulmuş vəzifələr, işğal prosesinin özü geniş işıqlandırılmış, bununla bağlı bir çox yeni sənədlər dövriyyəyə daxil edilmişdir[24]. Eyni zamanda həmin arxivin fondlarındakı materiallar əsasında Azərbaycan ordusunun şimal sərhəddində yerləşdirilmiş hissələrinin sayı, imkanları haqqında sovet komandanlığının kifayət qədər məlumata malik olmaları vurğulanmışdır. Təhlil nəticəsində belə fikir xüsusi qeyd edilir ki, ermənilərin Qarabağdakı təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün Azərbaycan ordusunun əsas hissələri Qarabağa göndərildiyindən ölkənin şimal sərhədləri faktik olaraq mühafizəsiz qalmışdı. Buna görə də işğalçı sovet qoşunlarına ciddi müqavimət göstərilməmişdi. Araşdırmaya cəlb olunmuş materiallar AXC-nin daxili siyasi böhran nəticəsində deyil, bolşeviklərin hərbi təcavüzü nəticəsində süqut etdiyini bir daha təsdiq edir[25].

---

[24] Hüseynova Ü.R. Sovet Rusiyasının Azərbaycana hərbi təcavüzü: hazırlanması və həyata keçirilməsi. Bakı: Bakı Dövlət Universiteti."Tarix və onun problemləri", 2018. № 4,-s.229-239

[25] Гусейнова У.Р. Подготовка и осуществление оккупации Северного Азербайджана XI Красной Армией. Киев: Национальна Академія НаукУкраїни. Институт сходознавства им. А.Кримського XXII сходознавчи читання А.Кримського.м-2019. Зм.54-84

I fəslin **“Sovet işğalının ilk günlərində Azərbaycanın Gürcüstan və Ermənistanla sərhədində vəziyyət”** adlı II yarımfəslində sovet rəhbərliyinin öz strateji məqsədlərin gerçəkləşdirmək üçün Azərbaycan ərazilərindən bir vasitə kimi istifadə etdiyini, onun suveren hüquqlarını tapdaladığını təsdiq edən konkret materiallar öz əksini tapmışdır[26]. Aprel işğalından sonra Azərbaycanın SSR-nin ərazi bütövlüyü probleminin və qonşu dövlətlərlə sərhədində yaranmış hərbi şəraitin təhlil edilmişdir. Sübut edilmişdir ki, bu gün Azərbaycanın üzləşdiyi bir çox problemlərin, o cümlədən Qarabağ probleminin əsası məhz həmin illərdə qoyulmuşdur. Ermənistanı sovet orbitinə daxil etmək, Azərbaycanla Türkiyə arasında birbaşa quru əlaqəni aradan qaldırmaq üçün sovetlər Azərbaycanın əzəli ərazisi olan Zəngəzuru Ermənistana peşkəş etdilər.

Dissertasiyanın II fəsli “**RDHA materialları Azərbaycan SSR-də işğal əleyhinə müqavimət hərəkatı haqqında mühüm mənbə kimi”** adlanır. Burada Sovet hakimiyyətinin ilk aylarında Azərbaycan SSR-də yeni rejimin tətbiq etdiyi inzibati idarəçilik metodlarının, hərbi, iqtisadi, mənəvi-mədəni tədbirlərin mahiyyətinin və nəticələri araşdırılmışdır.

Sovet işğalına qarşı Gəncə üsyanı da daxil olmaqla Azərbaycanın müxtəlif bölgələrində vüsət almış mili müqavimət hərəkatının səbəblərinin, inkişaf mərhələlərinin və nəticələrinin RDHA-nin sənədləri əsasında təhlil edilmişdir.

II fəslin **“Gəncə üsyanı”** adlanan I yarımfəslində Gəncə üsyanının başlanması, gedişi və yatırılması, RDHA-nin sənədləri əsasında təhlil edilmişdir[27]. Həmin materiallar sübut edir ki, Gəncə üsyanı Sovet rəhbərliyində ciddi təşviş yaratmışdı. Rəhbərlik bu

[26] Hüseynova Ü.R. 1920-ci il Sovet işğalından sonra Azərbaycan SSR-in Gürcüstan və Ermənistanla sərhədində vəziyyət (Rusiya Dövlət Hərb Arxivinin sənədləri əsasında). Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2019. –c. 78, - s.196-208

[27] Hüseynova.Ü.R. 1920-ci il Gəncə üsyanı Rusiya Dövlət Hərb Arxivinin sənədlərində. “İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr” mövzusunda gənc tədqiqatçıların (magistrant və doktorant) Respublika elmi konfransının materialları. -Lənkəran: Lənkəran Dövlət Universiteti.-2018.-s.161-162.

üsyanın Cənubi Qafqazda Sovet hakimiyyətinin gələcəyi üçün böyük təhlükə olduğunu dərk edərək nəyin bahasına olursa-olsun qısa müddətdə onu yatırtmağı qərara almışdı[28]. RDHA-nin sənədləri Gəncə üsyanının yatırılması zamanı sovet komandanlığının və qoşun hissələrinin insanlığa sığmayan vəhşiliklərini təsdiq edən əvəzzsiz tarixi mənbələrdir. Tədqiqatda bu mənbələrin bir çoxu ilk dəfə dövriyyəyə daxil edilmişdir[29].

Həmin fəslin **“Azərbaycan SSR-nin digər bölgələrində Qırmızı orduya qarşı üsyanlar”** adlı II yarımfəslində RDHA-nın sənədlərinin təhlili əsasında Azərbaycan SSR-nin müxtəlif bölgələrində baş vermiş silahlı çıxışların coğrafiyası, aparıcı qüvvələri, forma və gedişatı təhlil edilmişdir. Respublika ərazisində baş vermiş antisovet üsyanların və digər silahlı çıxışların yatırılmasının RDHA sənədlərinə əsasən işıqlandırılmışdır[30]. RDHA sənədləri Azərbaycanda sovet quruculuğunun kütləvi qanunsuzluqlar və repressiyalarla müşayiət olunduğunu, bunun isə kütləvi narazılıqların və etirazlara gətirib çıxardığını göstərir. Üsyanları, o cümlədən Qarabağda baş vermiş üsyanı yatırtmaq üçün Sovet hissələri ən qəddar metodlardan istifadə etmişlər[31].

Dissertasiyanın **“RDHA sənədlərində Azərbaycan SSR-də sosial hərəkatın və siyasi proseslərin əksi”** adlı III fəslində Sovet hakimiyyətinin ilk aylarında Azərbaycan SSR-də yeni rejimin tətbiq

---

[28] Телеграфные переговоры между командующим 11-ой армией Левондовским и командиром 20-ой стрелковой дивизии Великановым (Баку-Гянджа: 29 мая 1920 года // РГВА, Фонд № 195, опись № 3, дело № 275, л. 108-115

[29] Huseynova U.R. Yeni Belgeler Işığında 1920 Gence İsyanı. İstanbul: Uluslararası Yönetim və Sosyal araştırmalar Dergisi. III Beynəlxalq konfransın materialları.- İstanbul.- 2019.-s.208-218.

[30] Hüseynova.Ü.R. · XX əsrin 20-ci illərində Azərbaycan SSR-də sovetləşməyə qarşı mübarizə. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Müasir inkişaf mərhələsində elm, təhsil və istehsalatın vəhdəti” mövzusunda keçirilən Rspublika elmi-praktik konfransının materialları. Lənkəran: Lənkəran Dövlət Universiteti.-2018.-s.120-121.

[31] Приказ командующего 11-ой армией Левандовского начальнику 18 кавалерийской дивизии о ликвидации банд в районе Карабаха № 65 (Баку: 15 июня 1920 года) // РГВА, Фонд № 195, опись № 3, дело № 208, л. 1.

etdiyi inzibati idarəçilik metodları, hərbi, iqtisadi, mənəvi-mədəni tədbirlərin mahiyyəti və nəticələri işıqlandırılmışdır[32].

Bu fəslin**"Bölgələrdə silahlı çıxışlar və onlara qarşı mübarizə"** adlanan I yarımfəslində Azərbaycanda baş vermiş qanunsuzluqlar və zorakılıqlar xalqın milli və dini dəyərlərinə sayğısız münasibətin yeni hakimiyyətə qarşı müxtəlif formalarda, o cümlədən silahlı üsyan formasında cərəyan edən kütləvi müqavimət hərəkatının baş verməsinə gətirib çıxarması işıqlandırılmışdır. 1920-ci illərin sonlarında kollektivləşmənin başlanması ilə etiraz hərəkatının yeni mərhələsi başlanmış, bolşevik terrorunun yeni dalğası vüsət almışdır[33]. Antibolşevik çıxışlar, qaçaq hərəkatı bütün respublika ərazisini əhatə etmişdi. RDHA-nin materiallarına[34] əsasən sübut edilmişdir ki, sovet hakimiyyətinin ilk aylarında olduğu kimi sonralar da rejim əleyhinə xalq çıxışlarının yatırılması zamanı sovet komandanlığı ən amansız metodlardan istifadə etmişdir.

Dissertasiyanın **"RDHA-nın materiallarında XX əsrin 20-30-cu illərində Azərbaycan SSR rayonlarının siyasi-iqtisadi vəziyyətinin səciyyəvi xüsusiyyətlərinin təsviri"** adlı II yarımfəslində RDHA-nin fondlarındakı materialları ümumiləşdirməklə 1920-ci illərin sonlarında Azərbaycan SSR-nin ayrı-ayrı bölgələrinin siyasi-iqtisadi vəziyyətinin təhlil edilmişdir[35].Tədqiqatlar göstərir ki, araşdırılan dövrdə Azərbaycanda silahlı dəstələrin yayılmasının əsas səbəbi sovet hakimiyyətinin kənddə həyata keçirdiyi siyasi-iqtisadi kursla birbaşa əlaqədar idi[36].

---

[32] Hüseynova Ü.R. 1920-ci il Aprel işğalından sonrakı  ilk illərdə Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətə dair. Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2017. –c. 68, - s.145-161.

[33] Hüseynova Ü.R. 1920-ci il Aprel işğalından sonrakı  ilk illərdə Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətə dair. Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2017. –c. 68, - s.145-161.

[34] // РГВА, Фонд № 25873, опись № 2, дело № 1082

[35] Hüseynova Ü.R. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-nin cənub bölgəsində siyasi- iqtisadi vəziyyət (Rusiya Dövlət Hərbi Arxivin sənədləri əsasında). Bakı: Azərbaycan Turizm və Menecment Universiteti. "Turizm və qonaqpərvərlik tədqiqatları" .-2020.№1.-s.119-133.

[36] Hüseynova Ü.R. "XX əsrin 20-ci illərində Lənkəran qəzasında antisovet hərəkatı (RDHA-nin materialları əsasında)". Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650

Bu yarımfəsildə RDHA-nin sənədləri[37] əsasında 20-30-cu illərində respublikanın müxtəlif rayonlarının sosial-iqtisadi və siyasi vəziyyəti tədqiq edilmişdir. Həmin sənədlərə əsasən ayrı-ayrı rayonların sosial iqtisadi inkişafı, siyasi vəziyyəti, əhalinin məşğuliyyəti, əhval ruhiyyəsi, təhsil, mədəni səviyyəsi, sovet hökumətinin apardığı siyasətin nəticələri işıqlandırılmışdır.

Dissertasiya işinin **"Nəticə"** hissəsində hər üç fəsildə verilmiş məsələlərə yekun vurulur, tədqiqat işinə dair təklif və tövsiyyələr verilir:

– Rusiya Dövlət Hərb Arxivinin sənədlərinin, eləcə də müəyyən dərəcədə digər qaynaqların tədqiqi bir sıra nəticələrə gəlməyə imkan verir:

– Rusiyanın Sovet hökuməti hələ müstəqil Azərbaycan dövlətinin – Xalq Cümhuriyyətinin mövcudluğu zamanı onun ərazisini işğal etmək üçün gizli planlar hazırlamışdı və bu planların həyata keçirilməsinin əsas vasitəsi kimi hərbi müdaxilədən istifadə etməyi qərara almışdı. Tədqiqatlar göstərir ki, sovet rəhbərliyi Azərbaycanın işğalını özünün strateji planlarının əsas tərkib hissəsi kimi görür və daxili siyasi, sosial-iqtisadi problemlərini həll edilməsində Azərbaycanın, o cümlədən Bakı neftinin mühüm rol oynayacağını aydın dərk edirdi.

– Sovet siyasi-hərbi rəhbərliyi, o cümlədən Qafqaz cəbhəsi HİŞ və XI Qırmızı ordu komandanlığı Bakını ələ keçirmək üçün hərtərəfli, genişmiqyaslı hərbi plan hazırlayaraq həyata keçirmişdi. Azərbaycanı işğal etməkdən ötrü bolşeviklər ölkə daxilindəki antimilli qüvvələrdən istifadə etməklə yanaşı, erməni amilindən də yararlnaraq, öz hərəkətlərini ermənilərin Zəngəzurda və Qarabağda separatçı hərəkətləri ilə koordinasiya etmişlər.

– Müəyyənləşdirilmişdir ki, Azərbaycan daxilində siyasi sabitsizlik, hakimiyyət böhranları və digər amillər xarici hərbi müdaxilə təhlükəsinə qarşı səmərəli müqaviməti təşkil etməyə imkan

---

illik yubileyinə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransının materialları. Bakı: Azərbaycan Memarlıq və İnşaat Universiteti.-s.25-27.

[37] РГВА, Фонд № 25873, опись № 1, дело № 837

vermirdi. Bu da Sovet Rusiyasının Azərbaycan siyasi-diplomatik və hərbi təzyiqinin getdikcə artmasına şərait yaradırdı. Əsasən RDHA-nin materiallarına istinad edilməklə dissertasiyada Azərbaycanı işğal edən sovet ordusunun qüvvələri, tərkibi, əməliyyat planları, hərbi hissələrin qarşısında qoyulmuş vəzifələr, işğal prosesinin özü geniş işıqlandırılmış, bununla bağlı bir çox yeni sənədlər dövriyyəyə daxil edilmişdir. Eyni zamanda həmin arxivin fondlarındakı materiallar əsasında Azərbaycan ordusunun şimal sərhəddində yerləşdirilmiş hissələrinin sayı, imkanları haqqında sovet komandanlığının kifayət qədər məlumata malik olmaları vurğulanmışdır.

– Araşdırmaya cəlb olunmuş materiallar AXC-nin daxili siyasi böhran nəticəsində deyil, bolşeviklərin hərbi təcavüzü nəticəsində süqut etdiyini bir daha təsdiq edir. İşğaldan sonra Azərbaycanda yeni, sovet hakimiyyəti orqanlarının yaradılması prosesində də əsas rolu hərbi hissələr və onları xüsusi orqanları oynayırdılar. İşğaldan sonrakı ilk aylarda yerlərdə sovet hakimiyyətini həyata keçirən əsas orqanlar - qəza, sahə və kənd inqilab komitələri seçkili orqanlar deyildi, onlar hərbi hissələrin siyasi şöbələrinin bilavasitə iştirakı ilə yaradılmışdılar, hətta komitə üzvlərinin təyinatı zamanı siyasi şöbənin rəyi əsas götürülürdü. İnqilab komitələri ordu hissələri tərəfindən yaradıldığına görə, onların da əsas vəzifəsi faktik olaraq hərbi hissələrin yerləşdirilməsi, onların ərzaqla təmin edilməsi və s. problemlərinin həllindən ibarət idi.

– Azərbaycanı işğal etdikdən sonra sovet inzibati və hərbi hakimiyyət orqanlarının həyata keçirdikləri tədbirlər, Rusiyadakı sovet quruculuğu təcrübəsinin olduğu kimi əhalinin müxtəlif təbəqələrinə qarşı kütləvi qanunsuzluqlar və repressiyalarla müşayiət olunurdu. Sənədlər sübut edir ki, bu cəza tədbirlərinin əsas içraçıları ordu hissələri və onların xüsusi orqanları idilər. İşğalın ilk günlərindən başlayaraq həyata keçirilən müsadirələr, ərzaq tədarükləri, kütləvi həbslər və güllələnmələr təkcə “sinfi düşmən” hesab edilən varlılara deyil, əhalinin bütün geniş təbəqələrinə tətbiq edilirdi ki. bu da kütləvi narazılıqların və etirazların yaranmasına səbəb olurdu. Hərbi hissələrin qanunsuz əməlləri haqqında

Azərbaycan sovet rəhbərliyinə, qoşunların komandanlığına çoxsaylı şikayətlər daxil olsa da onların əksəriyyətinə baxılmırdı.

– Rejimə qarşı silahlı çıxışlar ölkənin demək olar ki, bütün bölglərini bürümüşdü. RDHA-nin sənədləri Gəncə üsyanının yatırılması zamanı sovet komandanlığının və qoşun hissələrinin insanlığa sığmayan vəhşiliklərini təsdiq edən əvəzzsiz tarixi mənbələrdir. Tədqiqatda bu mənbələrin bir çoxu ilk dəfə dövriyyəyə daxil edilmişdir.

– RDHA-nin və Azərbaycanın müxtəlif arxivlərindəki sənədlər ölkənin digər ərazilərində baş vermiş üsyanlar və etirazlar haqqında da zəngin faktlarla zəngindir. Bu sənədlərdə sılahlı üsyanların səbəbləri, mərhələləri, coğrafiyası, yatırılması üsulları haqqında bir çox etiraflar mövcuddur. Həmin sənədlər əsasında aparılmış tədqiqatlar bir daha sübut edir ki, sovet işğalına qarşı sılahlı üsyanlar rəsmi sovet tarixşünaslığının qeyd etdiyi kimi bir yığın əksiinqilabi ünsürün” silahlı çıxışı deyil bütöv bir xalqın onun müstəqilliyini əlindən almış yadelli rejimə qarşı azadlıq hərəkatı idi. Bunu üsyanların coğrafiyası və hərəkətverici qüvvələri də təsdiq edir. Silahlı üsyanlar Azərbaycanın demək olar ki, bütün qəzalarında baş verdiyindən və əhalinin bütün təbəqələri, xüsusən kəndlilər onlarda iştirak etdiyindən bu üsyanları tam əminliklə ümumazərbaycan hərəkatı kimi səciyyələndirmək olar.

– Bolşevik hakimiyyəti üsyan iştirakçılarına qarşı misli görünməmiş zorakılıqlar tətbiq etmiş, üsyanda iştirak etmiş şəxslərin uzaq qohumları belə təqiblərdən və cəzalardan yaxa qurtara bilməmişdilər. Ən amansız cəza tədbirləri isə Azərbaycan Cümhuriyyətinin milli ruhlu zabitlərinə tətbiq edilmişdi. Divantutmalarda iştirak edən sovet komandirləri və xadimləri isə əksinə ən yüksək dövlət təltiflərinə layiq görülmüşdülər.

– Silahlı dəstələrlə mübarizənin əsas ağırlığı hərbi hissələrin üzərinə düşdüyündən respublikada bu sahədə vəziyyəti əks etdirən sənədlərin müəyyən hissəsi də hərbi orqanların sənədləri idi. Bu sənədlərin bir çoxu hazırda RDHA-də saxlanılır.

– Tədqiqatlar göstərir ki, araşdırılan dövrdə Azərbaycanda silahlı dəstələrin yayılmasının əsas səbəbi sovet hakimiyyətinin

kənddə həyata keçirdiyi siyasi-iqtisadi kursla birbaşa əlaqədar idi. Xüsusən kollektivləşmə, taxıl tədarükləri, köçəri təsərrüfatların ləğv edilməsi cəhdləri, ənənəvi təsərrüfat növləri əvəzinə pambıqçılıq və digər sahələrin inkişaf etdirilməsi buna sosial zəmin yaradırdı.

– 20-30-cu illərində Azərbaycanda ictimai-siyasi vəziyyətin tədqiqində də RDHA-nin sənədlər mühüm əhəmiyyət kəsb edir. Xüsusən respublikanın müxtəlif rayonlarının sosial-iqtisadi və siyasi vəziyyətini araşdırmaq baxımından arxivin fondlarındakı analitik məlumatlar müstəsna əhəmiyyət kəsb edir. Həmin sənədlər ayrı-ayrı rayonların sosial iqtisadi inkişafı, siyasi vəziyyəti, əhalinin məşğuliyyəti, əhval ruhiyyəsi, təhsil, mədəni səviyyəsi, sovet hökumətinin apardığı siyasətin nəticələri haqqında unikal mənbələrdir.

– Tədqiqatın nəticələri də təsdiq edir ki, XX əsrin 20-ci illərinin bir çox problemləri tarıxşünaslıqda öz həllini tapsa da, müəyyən məsələlər hələ də obyektiv tədqiqini gözləyir. Bunun üçün isə elmi dövriyyəyə yeni sənədlərin və materialların gətirilməsi vacibdir.

**Dissertasiyanın məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində əhatə olunmuşdur:**

1. Azərbaycanın ictimai-iqtisadi və siyasi həyatı (20-ci illərin əvvəlləri) // - Lənkəran: Lənkəran Dövlət Universiteti, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Müasir elmin aktual problemləri" Respublika Elmi Praktirk Konfransın Materialları, - 2016. - s. 169-170.
2. Azərbaycan SSR-də yeni iqtisadi siyasətə keçilməsi şərati və bu keçidin xüsusiyyətləri // "Ali təhsildə keyfiyyətin təminatı" mövzusunda Respublika Elmi Konfranslının Materialları.- Lənkəran: Lənkəran Dövlət Universiteti. -2016.- s.138-139.
3. 1920-ci il Aprel işğalından sonrakı ilk illərdə Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətə dair // Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2017. –c. 68, - s.145-161.
4. 1920-ci illərdə Azərbaycan SSR-də ictimai-siyasi vəziyyət/ // "Müasirləşən Azərbaycan: Yeni yüksəliş mərkələsi" mövzusunda keçirilən gənc tədqiqatçıların Respublika Elmi Konfransının Materialları – Lənkəran: Lənkəran Dövlət Universiteti. -2017.- s.35-36.
5. Aprel işğalından sonrakı ilk illərdə Azərbaycanda ictimai-siyasi vəziyyət.// materialları -Lənkəran: Lənkəran Dövlət Universiteti. – 2017. – s.83-84.
6. XX əsrin 20-ci illərində Azərbaycan SSR-də sovetləşməyə qarşı mübarizə/ // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Müasir inkişaf mərhələsində elm, təhsil və istehsalatın vəhdəti" mövzusunda keçirilən Rspublika elmi-praktik konfransının materialları- Lənkəran: Lənkəran Dövlət Universiteti. -2018.- s.120-121
7. Sovet Rusiyasının Azərbaycana hərbi təcavüzü: hazırlanması və həyata keçirilməsi // Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, -2018. № 4, -s.229-239.
8. 1920-ci il Gəncə üsyanı Rusiya Dövlət Hərb Arxivinin sənədlərində.// "İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr" mövzusunda gənc tədqiqatçıların

(magistrant və doktorant) Respublika elmi konfransının materialları - Lənkəran: Lənkəran Dövlət Universiteti. -2018.- s.161-162.

9. 1920-ci il Sovet işğalından sonra Azərbaycan SSR-in Gürcüstan və Ermənistanla sərhədində vəziyyət (Rusiya Dövlət Hərb Arxivinin sənədləri əsasında) // Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2019. –c. 78, - s.196-208
10. Yeni Belgeler Işığında 1920 Gence İsyanı // Uluslararası Yönetim və Sosyal araştırmalar Dergisi. III Beynəlxalq konfransın materialları. – İstanbul: 02-04 noyabr, - 2019. -s.208-218.
11. Подготовка и осуществление оккупации Северного Азербайджана XI Красной Армией.// -Киев: Национальна Академія Наук Украіни. Институт сходознавстваим. А.Кримського XXII сходознавчи читання А.Кримського.м- 2019. № 84. - зм.55-84.
12. Гусейнова, У. Военно-правовые аспекты советского строительства в Азербайджане в 20-ые годы XX века // Материалы международной научно-практической конференции «Правовая культура народов Кавказа: становление, трансформация и перспективы». Северо-кавказский Институт (филиал) Всероссийского Государственного Университета Юстиции (РПА Минюста России). Махачкала: 26-27 ноября, - 2019. - с.48-57
13. XX əsrin 20-ci illərində Lənkəran qəzasında antisovet hərəkatı (RDHA-nin materialları əsasında) // - Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransının materialları- Bakı: Memarlıq və İnşaat Universiteti, - 2019. -s.25-27.
14. XX əsrin 20-ci illərinin II yarısında Azərbaycanda sosial-siyasi şəraitin səciyyəvi xüsusiyyətləri (RDHA-nın materialları əsasında).// - Bakı: Bakı Avrasiya Universiteti, Sivilizasiya,-2019- s.118-127.
15. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-nin cənub bölgəsində siyasi- iqtisadi vəziyyət (Rusiya Dövlət Hərbi Arxivin sənədləri əsasında) // - Bakı: Azərbaycan Turizm və Menecment Universiteti, "Turizm və qonaqpərvərlik tədqiqatları", - 2020, - №1. -s.119-133.

Dissertasiyanın müdafiəsi 17 aprel 2024-cü il tarixində saat 12⁰⁰ Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1148, Bakı, Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir

Avtoreferat 15 mart 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı:A5
Həcm: 46 822 işarə sayı
Tiraj: 100 nüsxə